# Milli Məclis komitələrinin iclasları keçirilib

Martın 3-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib.

İclasda 24 qanun layihəsi müzakirə edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə Azərbaycanda iqtisadi islahatların dərinləşməsi ilə əlaqədar görülən işlərdən danışıb. Bildirilib ki, gələcək inkişafımızda maliyyə resurslarından səmərəli istifadə edilməsi, maliyyə nəzarətinin təkmilləşdirilməsi, şəffaflığın artırılması ilə yanaşı, ən vacib məsələlərdən biri də ictimai nəzarətin gücləndirilməsidir. O, Prezident İlham Əliyevin fevralın 3-də Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması haqqında imzaladığı fərmanın önəmindən söz açıb. İclasın gündəliyinə çıxarılan məsələlərin hamısının bu fərmandan irəli gələn vəzifələr olduğu diqqətə çatdırılıb.

Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri, Maliyyə Bazarlarına Nəzarət Palatasının yaradılması üzrə işçi qrupunun rəhbəri Rüfət Aslanlı bildirib ki, Maliyyə Bazarlarına Nəzarət Palatasının yaradılmasında əsas məqsəd pul siyasəti funksiyası ilə maliyyə bazarlarının tənzimlənməsi funksiyası arasında ziddiyyətləri bir-birindən ayırmaqdır. Ötən dövr ərzində işçi qrupu Palatanın fəaliyyətinin mütərəqqi beynəlxalq prinsip və standartlara uyğun təşkil olunmasını təmin etmək məqsədilə bu sahədə mövcud olan beynəlxalq standartları araşdırıb. Bunun nəticəsi olaraq isə dövlət başçısına həm təşkilati, həm də normativ xarakterli təkliflər təqdim edilib. Bu gün müzakirə olunan qanunvericilik aktları zərfi məhz normativ və qanunvericilik xarakterli təkliflərin məcmusudur.

Bildirilib ki, Azərbaycanda yenilik olan maliyyə bazarları tənzimləyicisi bir müddətdir həm Qərbdə, həm Şərqdə geniş tətbiq olunur. Bütövlükdə Palata kredit təşkilatları, sığorta sektoru, qiymətli kağızlar bazarında lisenziyalaşdırma, tənzimləmə və nəzarət funksiyalarını həyata keçirəcək. Palata, həmçinin çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyət sahəsində dövlət siyasətini, onun tətbiqini təmin edəcək. Kredit təşkilatları dedikdə banklar, bank olmayan kredit təşkilatları, kredit ittifaqları, milli poçt operatorunun maliyyə xidmətləri, sığorta sektoru dedikdə isə sığorta və təkrar sığorta şirkətləri, sığorta brokerləri və agentləri nəzərdə tutulur. Kapital bazarı ilə bağlı bir müddət bundan öncə parlamentdə yeni qanun qəbul olundu. Kapital bazarları institutları dedikdə investisiya şirkətləri, fond birjaları, klirinq depozitar institutları nəzərdə tutulur. Palata, həmçinin sistem əhəmiyyəti olmayan ödəniş sistemlərinin fəaliyyətinin tənzimlənməsi ilə məşğul olacaq. Sistem əhəmiyyəti olmayan ödəniş sistemləri dedikdə klirinq hesablaşma ödəniş sistemlərinin (elektron ödəniş kartları) Palatanın tənzimləmə sferasına daxil olması nəzərdə tutulur. Habelə bu gün mövcud olan qiymətli kağızların ticarəti üzrə klirinq və hesablaşma sistemlərinin fəaliyyətinin tənzimlənməsi hazırda Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən icra edilir. Gələcəkdə isə bu funksiya Palatanın mandatına daxil ediləcək.

Qeyd edilib ki, Maliyyə Bazarlarına Nəzarət Palatası bu sahədə tənzimləmə və nəzarəti həyata keçirmək üçün bir neçə vasitədən istifadə edəcək. Bunlardan birincisi lisenziyalaşdırmadır. Palata yuxarıda sadalanan sahələrdə lisenziyalaşdırma aparacaq. İkincisi, Palata maliyyə sektorunda norma yaratmaq, normativ xarakterli aktlar qəbul etmək səlahiyyətlərinə malik olacaq. Üçüncüsü, Palata tənzimləmə subyektləri olan banklar, kredit təşkilatları, sığorta şirkətlərindən və kapital bazarları iştirakçılarından özünün müəyyən etdiyi forma və qaydalarda hesabatlar alacaq. Bu hesabatlar həmin təşkilatların maliyyə vəziyyəti, idarəetmə sistemlərinin effektivliyi barədə davamlı təsəvvürün və təhlillərin formalaşmasına xidmət edəcək. Dördüncüsü, Palata tənzimlədiyi maliyyə bazarları institutlarının fəaliyyətini yerindəcə yoxlayacaq. Yoxlama prinsipləri və qaydalar isə Palata tərəfindən müəyyən ediləcək. Nəhayət, tənzimlənmə və nəzarət prosesləri gedişində hər hansı qanun pozuntuları aşkar edildikdə və yaxud maliyyə bazarı subyektlərinin riskli fəaliyyəti aşkarlandıqda bu zaman təsir tədbirləri və ya sanksiya xarakterli tədbirlər tətbiq olunacaq. Bildirilib ki, Azərbaycan Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinin bütün funksiyaları Maliyyə Bazarlarına Nəzarət Palatasına keçəcək.



İşçi qrupunun rəhbəri vurğulayıb ki, iclasın gündəliyində təqdim olunan qanunvericilik zərfi məhz Palatanın sadalanan mandat çərçivəsində fəaliyyəti üçün hüquqi əsaslar yaratmağa xidmət edir. Hazırda bank, sığorta və kapital bazarları sektorlarını müxtəlif orqanlar tənzimləyir və orada nəzarət tədbirləri həyata keçirir. Bu tənzimləyici orqanlar isə Mərkəzi Bank, Maliyyə Nazirliyi və Qiymətli Kağızlar üzrə Dövlət Komitəsidir. Nəzərə alsaq ki, bu funksiyalar üç orqandan yeni yaradılacaq orqana keçəcək, buna görə də təklif olunmuş qanunvericilik zərfində məhz bu funksiyaların yeni quruma keçirilməsi üçün əlavə dəyişikliklər nəzərdə tutulub. Bunlar "Banklar haqqında" Qanunda dəyişikliklər edilməsi barədə, "Azərbaycan Respublikası Mərkəzi Bankı haqqında" Qanunda dəyişiklik edilməsi haqqında, "Bank olmayan kredit təşkilatları haqqında" Qanunda dəyişiklik edilməsi barədə, "Kredit ittifaqları haqqında" Qanunda dəyişiklik edilməsi haqqında, "Poçt haqqında" Qanunda dəyişiklik edilməsi barədə və xeyli sayda sığorta və kapital bazarları ilə əlaqədar qanunlarda ediləcək dəyişikliklər haqqında qanun layihələridir. Habelə "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunda da məhz bu xarakterli dəyişikliyi təmin edəcək yeniliklər təklif olunur.

R.Aslanlı "Publik hüquqi şəxslər haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında da danışıb. Bildirilib ki, publik hüquqi şəxs, ümumiyyətlə, Azərbaycan qanunvericiliyində yeni bir formadır. Publik hüquqi şəxsin norma yaratma hüquqları əldə etməsi üçün hazırda qüvvədə olan Konstitusiya Qanununa əlavələr təklif olunur. Bu əlavələrin mahiyyəti haqqında danışan işçi qrupunun rəhbəri qeyd edib ki, dəyişikliyə əsasən, publik hüquqi şəxslər normativ xarakterli aktlar qəbul edə biləcəklər.

Vurğulanıb ki, yoxlamaları tənzimləyən iki qəbildən olan qanunverici sənədlər var. Lakin bugünkü reallıqlar göstərir ki, bu qanunlarda maliyyə sektoru müəssisələrinin yoxlanılması istisna olunur. Bu gün müzakirə olunan qanunvericilik zərfində nəzərdə tutulur ki, Palata gələcəkdə özünün müəyyən etdiyi qaydalar çərçivəsində tənzimləmə subyektlərində yoxlamalar aparacaq. Başqa sözlə, Palatanın yoxlama funksiyaları, prosesləri ümumi qanunvericilikdən ayrılır. Bununla əlaqədar olaraq ayrı-ayrı sektoral qanunlarda keçid müddəaları nəzərdə tutulub. Ümumiyyətlə, planlaşdırılır ki, Palatanın təşkilatlandırılmasından sonra bütövlükdə maliyyə bazarlarının tənzimlənməsi haqqında ümumi bir qanun hazırlansın. Burada isə həm lisenziyalaşdırılma, həm də hesabatlılıq və yoxlamalar aspektləri birlikdə əhatə olunsun.

İşçi qrupunun rəhbəri bildirib ki, Palata əməliyyat və maliyyə müstəqilliyinə malik olmalıdır. Bu nöqteyi-nəzərdən tənzimləmə subyektləri Palatanın fəaliyyətini maliyyələşdirmək üçün müəyyən haqlar ödəyəcək. Məhz bu prosedura hüququ əsas yaratmaq üçün müvafiq qanunlara əlavə və dəyişikliklər təklif olunur ki, bu əsasda Palata haqları ala bilsin.

R.Aslanlı təklif olunan sənədlərin Mərkəzi Bank və Palatanın səlahiyyətlərinin bölgüsünü dəqiq müəyyən etməyə imkan yaratdığını deyib. Mərkəzi Bank pul siyasətini həyata keçirəcək, ödəniş sistemlərinin fəaliyyətini təşkil edib, onu tənzimləyəcək, eyni zamanda, nağd pul təsərrüfatını təşkil edəcək. "Valyuta tənzimi haqqında" Qanunla Mərkəzi Bankın valyuta nəzarəti orqanı funksiyası olduğu kimi saxlanılır. Bank sisteminin tənzimlənməsi və nəzarəti funksiyası isə Palatanın səlahiyyətinə keçir.

Sonra Milli Məclisin deputatları qanun layihələri haqqında fikirlərini səsləndiriblər.

Qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə edilib.

❖ ❖ ❖

Martın 3-də Milli Məclisin Səhiyyə komitəsinin iclasında 7 qanun layihəsi müzakirə edilib.

İclasda Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi, "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Qanunda dəyişiklik olunması, "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" Qanunda dəyişikliklər edilməsi, "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında" Qanunda dəyişiklik olunması, "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Qanunda dəyişiklik edilməsi, "Əhaliyə tibbi yardımın göstərilməsi, virusologiya müəssisələri üzrə elmi tədqiqatların aparılması və virus preparatlarının istehsalı ilə məşğul olan işçilərin öz xidməti vəzifələrinin yerinə yetirilməsi zamanı insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyə yoluxma, habelə bununla əlaqədar baş vermiş əlillik, 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu və ölüm hadisələrinin dövlət icbari sığortası qaydaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Qanunun ləğv edilməsi, "Tibbi sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələrinə baxılıb.

Komitənin sədri Əhliman Əmiraslanov deyib ki, Azərbaycanda ixtisaslaşmış tibbi yardımı düzgün şəkildə həyata keçirməyənlər 500 manat məbləğində cərimə ediləcəklər. İclasda İnzibati Xətalar Məcəlləsinin vətəndaşların hüquqlarının pozulması haqqında 215-ci maddəsinə yeni məzmunda 215.3-cü bəndin əlavə edilməsi təklif olunub. Əlavəyə əsasən, ixtisaslaşmış tibbi yardımın "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunda nəzərdə tutulan qaydada göstərilməməsinə görə 500 manat məbləğində cərimə nəzərdə tutulur.

Nəzərdə tutulan dəyişiklik "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının 2015-ci il 2 fevral tarixli 1177-IVQD nömrəli Qanunun tətbiqi ilə əlaqədardır.

Bildirilib ki, "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Qanunun 6.2-ci maddəsində "məcburi" sözü "icbari" sözü ilə əvəz ediləcək.

Qeyd edilib ki, "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" Qanunda təklif olunan dəyişikliklər vərəm əleyhinə tibb müəssisələrində işləyən həkim-ftiziatrların, digər mütəxəssislərin və işçilərin öz peşə funksiyalarını yerinə yetirərkən bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın təkmilləşdirilməsini nəzərdə tutur. Həmin şəxslər bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətini itirərsə "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Qanuna uyğun olaraq icbari qaydada sığorta olunacaqlar.

Vurğulanıb ki, "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında" Qanunun 6.2-ci maddəsində "məcburi" sözü "icbari" sözü ilə əvəz ediləcək.

İclasda bildirilib ki, "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Qanunda ediləcək dəyişikliyə əsasən, sənədin 26.3-cü maddəsi yeni redaksiyada veriləcək. Belə ki, "Əmək funksiyalarının icrası ilə əlaqədar tibb işçiləri, habelə virusologiya müəssisələri üzrə elmi tədqiqatların aparılması ilə məşğul olan işçilər İİV-ə yoluxma riskinə görə "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Qanuna uyğun olaraq icbari qaydada sığorta ediləcəklər.

Qeyd olunub ki, "Əhaliyə tibbi yardımın göstərilməsi, virusologiya müəssisələri üzrə elmi tədqiqatların aparılması və virus preparatlarının istehsalı ilə məşğul olan işçilərin öz xidməti vəzifələrinin yerinə yetirilməsi zamanı insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyə yoluxma, habelə bununla əlaqədar baş vermiş əlillik, 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu və ölüm hadisələrinin dövlət icbari sığortası qaydaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Qanun ləğv ediləcək.

"Tibbi sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə əsasən, sənədin 6-cı maddəsinin doqquzuncu abzası ləğv olunacaq.

Çıxış edən deputatlar dəyişikliklərin zəruri olduğunu bildiriblər.

Qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə edilib.

❖ ❖ ❖

Martın 3-də Milli Məclisin Gənclər və idman komitəsinin iclasında "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi müzakirə olunub.

Qanun layihəsindəki dəyişikliklərə əsasən, sənədin 53-1.5-ci maddəsində "dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanı" sözləri "nəzarət maliyyə bazarlarına nəzarət orqanı" sözləri ilə əvəz edilir. Bildirilib ki, bununla da idman mərc oyunlarına nəzarət funksiyası yeni yaradılmış Azərbaycan Maliyyə Bazarlarına Nəzarət Palatasına verilir.

Həmçinin qanuna əlavə edilən 53-1.7-ci maddədə qeyd edilir ki, "idman mərc oyunlarının təşkili və keçirilməsinə nəzarəti həyata keçirən maliyyə bazarlarına nəzarət orqanı həmin orqanın müəyyən etdiyi məbləğdə və qaydada idman mərc oyunlarından əldə olunan haqlar hesabına maliyyələşir".

Sonda qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

**AZƏRTAC**